

**...30 il əvvəl bir şair tanıdım - adı Qafar özü Qərib; özü doğma sözü qərib... məhz bu qəribəlik onun poeziyasını seçilən, yaddaqalan və könüloxşayan edir. İnşallah ki, mühitimiz bu qəribliyin və qəribəliyin içində gizlənən doğmalığı,səmimiyyəti və həqiqəti hiss edə biləcək. Əziz tələbə yoldaşım, indi isə iş yoldaşım, dostum, qardaşım və çox dəyərli qələmdaşım Qafar Qəribin yubileyinə böyük ehtiramla...**

# Yarım əsrin poetik nəfəsi

## Sözlə böyüyən ömürnamə

ZÜLFİYYƏ İSMAYIL
*Dosent*
*AMEA Naxçıvan Bölməsi*

**Müstəqillik dövrü Naxçıvan ədəbi mühitinin istedadlı və məhsuldar nümayəndələrindən sayılan şair-publisist Qafar Qərib Naxçıvan MR Babək rayonunun Güznüt kəndində 01 mart 1976-cı ildə dünyaya göz açıb. 1995-ci ildə Gəncə Dövlət Pedaqoji Universitetinin Tarix-filologiya fakültəsinə daxil olmuşdur. Elə həmin il səhhəti ilə əlaqədar Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinə köçürülmüş və 1999-cu ildə həmin universiteti bitirmişdir. O, hələ tələbə ikən yaradıcılıq fəaliyyəti ilə tanınmışdır. Onun yaradıcılığı diqqəti cəlb etmiş və Ümummilli Liderimiz Heydər Əliyevin 28 oktyabr 2000-ci il tarixli sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşdür. O, dəfələrlə müsabiqələrin qalibi olmuş, diplom və mükafatlarla təltif olunmuşdur. 23 yaşından Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, 2024-cü ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır.**

Qafar Qərib "Gözlərsən məni", "Gözümə döydüyüm şəkil", "İçimizdəki qəhrəman", "Dünya üç bucaq imiş", "Göydən üç alma düşdü", "Vətən daşdan başlayırmış", "Qədim - yeni Naxçıvan", "İki qapı arasında" və s. adlı 10-dan çox kitabları ilə dəfələrlə oxucuların görüşünə gəlib. Sözdən, sözə dəyərdən yaranan bu əsərləri bütünlüklə təhlil edərkən diqqətimizi mövzu, məzmun, ideya xüsusiyyətləri cəlb etməklə bərabər, şairin dili və üslubu haqqında da fikirləşməli oluruq. Çünki bu şeirlərin bədii tutumu, ifadə və istifadə imkanları, üslubi məqamları şairin bacarığını, sənətkarlıq xüsusiyyətlərini dəyərləndirməyə imkan verir. Deməli, hər bir şairin fəaliyyəti, yaradıcılığı dildən başlayır. Əsərlərdə təsvir və ifadə olunacaq mövzu, kompozisiya, problem, ideya məhz bu dildən qaynaqlanır. Yəni dili zəif olan şairin ifadə tərzi zəif olur, doğma dilimizin zəngin söz bulağından su içən qələm sahibinin şeiri isə axıcı və yaddaqalan. Bu baxımdan Qafar Qəribin dili maraq doğurur. Onun əsərlərinin dili təbii və səlis, səmimi və lakonikdir, eləcə də emosional-ekspressiv xüsusiyyətlərə malikdir. Şair əsərlərində taftalogiyadan uzaq olur, özünəməxsus deyim və duyum tərzi əsərlərini daha da oxunaqlı edir. Qafar Qəribi yaxından tanıyanlar yaxşı bilir ki, o, sakit, yumşaq təbiətli, həlim xasiyyətli, asta danışan biridir, amma şeirlərində odlu-alovlu, pafoslu, üsyankar misralar onun daxili etirazının, narahat ruhunun, nigaran düşüncələrinin əks-sədası kimi təzahür edir. Fikrimizcə, Qafar Qəribin yaradıcılığı dil və üslub baxımından geniş şəkildə tədqiq olunmağa layiqdir.

Bu mənada, Qafar Qəribin hər bir şeiri oxucuya dərin məzmunu ilə yanaşı, həm də hikmət aşılayır. Onun özünəməxsus şeir çələngində vətənpərvərlik, vətən-torpaq sevgisi əsas istiqamət kimi xüsusilə seçilir. Onun şeirlərinin dili çağdaş Azərbaycan dilinin poetik normalarına - sadəliyə, təbiiliyə, dərin semantik tutuma, geniş mənaya malik xəlqi bir dildir. Q.Qəribin poeziyasında milli hiss, xalqa, doğma torpağa bağlılıq, vətənpərvərlik duyğuları çox qüvvətlidir. O, bütövlükdə Vətənimizin təbii gözəlliklərini vəsf edib dolğun bədii nümunələr yaratmışdır. Doğma Naxçıvanımızın dünəni və bu günü barədə poetik düşüncələr də onun söz dünyasında özünəməxsus yer tutur. "Qədim-yeni Naxçıvanım" əsərində əsas yeri tutan doğma yurdun tərənnümü, onunla qürur duymaq ovqatı digər belə nümunələr üçün də xarakterikdir.

Tanınmış şairin yaradıcılığında Naxçıvan mövzusunu müxtəlif yönlərdən əks etdirən şeirlər çoxdur. Əsasən "Vətən daşdan başlayırmış" (2009), "Qədim - yeni Naxçıvan" (2014), "Gözümə döydüyüm şəkil" (2000) və s. kitablarında doğma yurdun tərənnümü ideya və məzmun baxımından seçildiyi kimi, dil-üslub baxımından da diqqəti cəlb edir. Qədim Naxçıvanın tarixi keçmişi ilə bugünkü büsatı üzvi əlaqədə tərənnüm edilmiş, bu torpağın, doğrudan da, "Nuhdan qalan" olduğu poetik cəhətdən əsaslandırılmışdır.

Şair Qafar Qəribin "Qədim-Yeni Naxçıvanım" və "Əlincə" poemaları mövzu-ideya baxımından olduğu kimi, dilnin axıcılığı ilə maraq kəsb edir. Naxçıvanın dünənini və bu gününü inkişaf aspektindən təqdim baxımından "Qədim-Yeni Naxçıvanım" poemasının xüsusi yeri var. Əsər klassik poemalar təsiri bağışlayaraq Naxçıvanın müdafiəsi və inkişafına bütün əməyini vermiş ulu öndər Heydər Əliyevə və digər şəxslərə həsr olunan giriş xarakterli bölmələr vardır. Naxçıvanın müasir görünüşünə, inkişafı və rifah vəziyyətinə nəzər salan şair burda müasirliklə köhnəliyin birləşdiyinə və bunun şəhərin ümumi fonuna xüsusi bir rəng, görkəm verdiyinə diqqət yetirir. Müasir Naxçıvanı bütün təfərrüatı ilə əks etdirən müəllif onun müasir vəziyyətini "nağılvarı" adlandırır.



"Əlincə" poeması Naxçıvanın alınmazlıq qalasına və əyilməzlik simvoluna çevrilən Əlincə qalasından bəhs edir. Daha çox lirik poema təsiri bağışlayan bu əsərdə Əlincənin şanlı tarixi, Əlincə qalası və ətraf kəndləri haqqında əfsanə oxucu üçün maraq doğurur. Əlincə bayatıları adlandırılan bayatı şəkilli şeirlər də bu mötivləri özündə əks etdirməklə əsəri tamamlayır. O, bəzən həm poema, həm də şeirlərində folklorik nümunə yaratmaqla dilin tarixi inkişaf yollarını yaşadan sözlərdən - dialekt və şivə sözlərdən istifadə etməklə Azərbaycan dilinə dərindən bələdliyini sübut edir, həm də yerli kolorit yaradır.

Qafar Qəribin lirikasında milli, tarixi mövzularla yanaşı, siyasi mövzulara da maraq böyükdür. Şair bu qəbildən olan şeirlərinin çoxunda ritorikadan istifadə edir, sanki özü ilə dialoq qurur. Onun lirik "məni" konkret bir şəxsiyyət və canlı insandır. O sevir, sevilir, qəzəblənir, kədərlənir, lakin hər şeydən əvvəl düşünən vətəndaş olaraq özü ilə dərdləşir.

Qafar Qəribin poetik dilini tədqiq edərkən üslubunun yeniliyi və orijinallığı, özünəməxsus məcazlar sistemi, frazeoloji vahidlərdən, hikmətli sözlərdən, atalar sözü və məsəllərdən geniş istifadə etməsi onun xalq dilinə dərindən bələd olmasının bariz ifadəsi olmaqla yanaşı, sözün bədii-estetik səviyyəsini yüksəldən məqam kimi qarşımıza çıxır.

Fikrimizcə, şairin poetik dilinin əsas cəhəti kimi Azərbaycan dilində mövcud olan atalar sözü və məsəllərə müdaxilə, bədii, estetik, emosional əlavələr etməklə işlətməsi və həyati təcrübələrinin ümumiləşdirilmiş nəticələri kimi hikmətli misraların bolluğu şairin bir şəxsiyyət olaraq yüksək intellekt səviyyəsi ilə əlaqədardır.

Qafar Qəribin yaradıcılığında antiteza isə daha geniş faktorları özündə cəmləşdirən üslubi fiqur kimi diqqəti cəlb edir. Bu üslubi fiqur leksik-semantik baxımdan onun "Xoşbəxtlik və bədbəxtlik" şeirində mətn daxilində həm mütləq, həm də nisbi antonimlərlə ifadə olunan antiteza yaradır və müxtəlif ziddiyyətli anlayışları müqayisə yolu ilə bir-birinə qarşı qoyur:

Şair yaradıcılığında antonim sözlərdən, bir-birinə zidd olan fikirlər vasitəsilə bədii təzadlar yaratması ilə fikrin dərinliyinə, təsirliliyinə nail olur.

Şairlər Allaha ən yaxın olan bəndələrdirlər. Onlar sözə söz qoşub, sözə bədii ruh verib, cana gətirib insan qəlbinə yol tapırlar. Şair ağlının diktəsi ilə düşünür, ürəyinin səsi ilə yazır. Qafar Qərib cəsarətli və üsyankar olduğu qədər də kövrək şairdir. O, şeirlərində daim ürəkdən-ürəyə işıq aparmağa çalışsa da, bəzən haqsızlıqlardan bir qədər kövrəlir.

Bütün işıqlı və nurlu insanlar belədir. Öz böyüklüyü məqamında təvazökarlıq edir: "Mən düşən qara torpaqdan, Bir qara çiçək göyərər" - şairin narahat duyğuları bu cür misralarda üzə çıxır.

Qafar Qəribin şeirlərində həyat həqiqətlərinin ümumiləşmiş fəlsəfi ifadəsi əsasdır. Şair bədii sözün qüdrətini hikmətdə, onun hikmətlə birgə doğuluşunda görür.

Şairlərin ömrünü maraqlı, sonu olmayan nağıla bənzədən şair "Cavan ölmək qorxusu" şeirində "Şair ömrü maraqlı bir nağıldı, Ölsə ondan xatirələr qalacaq..." şeirindəki misraları sanki "Bu nağılın ta dalı yox" şeiri ilə tamamlayır.

...Hələ 30 yaşı haqlamamış gənc şairin 2004-cü ildə işıq üzü görən "Dünya üç bucaq imiş" adlı şeirlər kitabı bu səpkidə yazılmış şeirlərlə və ya misralarla zəngindir.

Onun yaradıcılığında kədərli notlarla akkordlanan, hüznə bürünən, ürək parçalayan misraların qaynağı nədir?!.. Yavuz Axundlunun təbirincə desək, "Ölüm növbəsi"ndə duran şair..." ərşlə-fərşlə sözbəsöz olmağının səbəbi "Gənclik və zaman" qəzetinin "Qafar Qərib - 30" xüsusi buraxılışındakı "Şairin dilindən son söz əvəzi SEVGİ" ( Mənə yazılacaq olan "Nekraloq"a bir baxış) məqaləsini oxudaqdan sonra aydın olur: "Bu gün OTUZu geridə qoyuram. Əslində bu gün çox şeyi geridə qoyuram - ölümü, dərdi, "qüsur"ları, içinə qapanmağı, ümidsizliyi və daha nələri... Özümlə götürdüyüm, gələcəyə apardığım isə təkcə sevgidir. Hər bir şeyə - Allaha, Vətənə, anaya, Ona və daha kimlərə olan sevgim... Və bir də bu saydıqlarımın mənə olan sevgisi. Bu sevgi məni yaşadacaq". Bəli, Otuzla sevgi ilə ayrılan şair Qırxı da 10 il əvvəl yola salıb, bu il isə 50 illik yubileyini SEVGİ ilə qarşılayır... Qafar Qərib bir şəxsiyyət, bir şair kimi pak və təmiz duyğulu bir insandır. İki sözünün biri "Sevgi" olan şairin mövzu dairəsi rəngarəng və genişdir: poeziya üçün əbədi mövzulardan olan məhəbbət, təbiət gözəllikləri, insanın qurmaq, yaratmaq eşqi, xalqın müdrikliyi, böyüyə hörmət, düşmənə nifrət, alın yazısı, ləyaqət və dəyanət, ana məhəbbəti, insan xislətindəki yaramazlıqların ifşası, torpağın bərəkəti, gül-çiçəyin məftunedici ətri və s. və i. bütün bunlar onun yaradıcılıq manerasına daxil olsa da, onun yaradıcılığının əsas qayəsi bütün bəşəri varlıqlara, konkret və mücərrəd məfhumlara qarşı olan sevgidir. Bu sevgiyə bədii ruh vermək üçün ana dilimizi dərindən sevmək, onun yaradıcılıq imkanlarından istifadə etmək kifayətdir, çünki bütün sevgilərin başında ana dilimizə olan məhəbbət dilə gəlir, bütün sevgilər bu dilin gözəllikləri ilə izhar olunur, şairin misralarında dil açır. Dilimizin gözəlliklərindən, bədii imkanlarından bacarıqla istifadə etmək şairə verilən Allah vergisidir. Qafar Qərib "Görürəm ki, "bekara" yazıram", - desə də, o, sözün əsl mənasında, qələmə dörd əllə sarılan, yazmaq xatirinə deyil, fitrətən - Allah vergisilə, ürəyinin səsi, ağlının diktəsi, təfəkkürün gücü, məntiqinin yozumu ilə yazan şairdir.

Nəticə olaraq qeyd edək ki, Qafar Qəribin yaradıcılığının dili təbii və səlis, səmimi və lakonikdir. Bəzi məqamlarda emosionalıq o qədər güclü olur ki, "Edam kötüyü" ilə "dərdləşən" şairin əlindəki qələm qılınca çevrilir, o, bu məqamda ümumxalq dilinin ən dərin qatlarına enir ən təsirli söz və ifadələr seçməklə şeirin təsir gücünü artırır.

Q.Qəribin əsərlərinin linqvistik təhlili göstərir ki, o, eyni zamanda, sözün bədii-estetik səviyyəsini yüksəldən frazeologizmlər, bədii təsvir və ifadə vasitələri onun yaradıcılığında xüsusi yer tutur. Bu, onun qələminin, üslubunun, sənətkarlıq xüsusiyyətinin göstəricisi olmaqla yanaşı, həm də şair düşüncəsini, dünyagörüşünü təyin edən məziyyətdir. Bu halda haqlı olaraq demək olar ki, onun özünəməxsus üslubu, deyim və duyum tərzi var. Ümumiyyətlə, Q.Qəribin dili ədəbi və xalq dilinin bütün qanunauyğunluqlarını özündə təcəssüm etdirir.

Beləliklə, Qafar Qəribin yarım əsrlik ömür yolu təkcə zamanın ardıcıl sıralanmış illəri deyil, poeziyanın, sözün və düşüncənin nəfəs aldığı mənalı bir yol xəritəsidir. Onun yaradıcılığı insan ruhunun dərinliklərinə enməyi bacaran, oxucunu düşündürən, bəzən kövrəldən, bəzən isə ümidlə ayağa qaldıran poetik bir dünyadır. Bu yarım əsr ərzində şair sözün məsuliyyətini daşımağı, poeziyanın saflığını qorumağı və öz səsinə sadiq qalmağı bacarmışdır. Qafar Qəribin poetik nəfəsi bu gün də canlıdır, çağdaşdır və sabaha doğru yol gedir. Bu əlamətdar yubiley münasibətilə Qafar Qəribi ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayırıq. Qoy sözün işığı yolunu daim aydınlatsın, qələmindən süzülən misralar hələ uzun illər oxucuların ruhuna poetik nəfəs versin, qələmi heç zaman susmasın, misraları oxucuların qəlbində öz doğma ünvanını tapsın. Yarım əsrlik ömür zirvə deyil, yeni poetik üfüqlərə açılan başlanğıc olsun!